Təhsil Sektorunun İnkişafı Layihəsinin maliyyə hesabatlarına müsbət rəy verilib

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə beynəlxalq Pricewaterhouse Coopers (Praysvoterhouskupers) audit şirkəti Təhsil Sektorunun İnkişafı Layihəsinin 31 dekabr 2007-ci il tarixi vəziyyətinə dair auditini həyata keçirmişdir.

Auditorlar Layihənin maliyyə göstəricilərinin və xüsusən də Dünya Bankının Azərbaycan Beynəlxalq Bankındakı xüsusi valyuta hesabında olan vəsaitlərinin hərəkətinin, eləcə də layihə çərçivəsində imzalanmış müqavilələrin satınalma prosedurlarının auditini aparmışlar.

Pricewaterhouse Coopers şirkəti Təhsil Sektorunun İnkişafı Layihəsinin maliyyə hesabatlarına dair auditor rəyi vermişdir. Rəydə qeyd olunur ki, layihənin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Dünya Bankının Təlimatlarında göstərilən müddəalara uyğun olaraq düzgün tərtib edilmişdir.

Məqsədyönlü müəllim axtarışları

Pedaqoji fəaliyyətin nəticələri bundan asılıdır

Pedaqoji proses, pedaqoji sahə, müəllimlik peşəsi, müəllim əməyinin fəzilət və qüdrəti haqqında çox fikirlər söylənilib. Müəllim peşəsi bağban peşəsinə bənzədilib... Bu fikir və mülahizələrin hər birində həqiqət var, böyük və şərafli əməyə verilən qiymət aksini tapıb. Etiraf edək ki, bu fikirlərin ifadə etdiyi məna və mazmun bütövlükdə pedaqoji prosesin siqlətini, öyrətmənin çətinliyini və bu çətinliyin aradan qaldırılması naminə çəkilən müəllim əməyinin əzamətini bütün çalarları ilə göstərmir.

Müəllim əməyinin fəzilətini bu peşədə çalışanlar bütün incəliklərі ilə duyurlar. Keçilən hər hansı uğurlu dərsin şagird təfəkkürünü və təxəyyülünü işıqlandırma vüsətini məhz müəllimlər təsəvvür edirlər. Bu sətirlərdə belə fədakar müəllim həyatına nəzər salınacaq, tədris sisteminden epizodlar qələmə alınacaq.

Mayisə Fərrux qızı Qasımova Ordubadın Xanağa kəndində müəllim ailəsində doğulub böyüyüb. Hələ uşaq ikən bu peşə sahiblərinin gündəlik iş qayğıları və sevinci ona bəlli olub. Orta məktəbi bitirəndə gələcək həyat yolunu seçməkdə tərəddüd etməyib; sənədlərini Naxçıvan Dövlət Universitetinə verib. 1979-cu ildə doğma kəndə əmək fəaliyyətinə başlayıb. 1981-ci ildən Ordubad şəhər 3 nömrəli orta məktəbdə çalışıb. Və bu bir neçə il ərzində o, özünü peşəsinə vurğun, pedaqoji ustalığını artırmağa meyilli bir müəllim kimi tanıdıb. 1999-cu ildə Ordubad Rayon Təhsil Şöbəsinin xəttilə əlyaxası hüququnda buraxılmış kiçikhəcmli kitabçada Mayisə Fərrux qızının qabaqcıl təcrübəsi umumiləşdirilərək şərh olunub.

Ötən əsrin 70-ci illərində az qala aforizmə çevrilmiş bir fikir yada düşür: Günəş bir damla suda əks olunduğu kimi, formalaşmış tədris sistemi də bir dərsdə özünü göstərir.

Təhsil əsri adlandırılan XXI əsr Kompüter əsri kimi də səciyyələndirilir, çünki təlimdə kompüter texnologiyası geniş yayılıb. Lakin zaman öz inkişafındadır və kompüter texnologiyası informasiya texnologiyası ilə əvəz olunur. Bugünkü gənciyin informasiya mədəniyyətinin formalaşdırılması günün aktual pedaqoji məsələlərindendir. Cəmiyyətin informatlaşdırılmasının təmin olunmasında informatika fəninin imkanlarından səmərəli istifadə Bakıdakı H.Hüseynov adına 83 nömrəli məktəbliseyin müəllimi Mayisə Qasımovanın tədris sistemində əhəmiyyətli yer tutur. O, fənnin həm nəzəri, həm də praktik cəhətdən yaxşı tədrisi üçün hər bir mövzu ilə bağlı dərsə ciddi və yaradıcı hazırlaşır.

***

- Bu fənnin tədrisində fənlərarası əlaqənin böyük əhəmiyyəti var. Təcrübəmdə müəyyən etmişəm ki, informatika dərslərində fənlərarası əlaqənin nəzərə alınması şagirdləri tədris prosesində fəallaşdırır, onların idraki, zehni qabiliyyətləri güclənir, məktəblilərdə başqa fənlərə maraq oyanır, - söhbət zamanı Mayisə Qasımova fikrini ayrıayrı mövzuların tədrisi baxımından əsaslandırdı.

"Əşyaların qruplaşdırılması" - II sinifdə informatikadan keçilən dərslərdən biri bu mövzudadır. Bir dərsin təəsüratı belə oldu.

Kompüter otağında dərs Dövlət himninin oxunması ilə başlayır. Müəllimi nəzmlə salamlayan ikincilər özlərinin zəkalı olduqlarını vurğulayırlar.

Mayisə Fərrux qızı sinfə müracıətlə deyir: — Əmək hazırlığı dərsindən bilirsiniz ki, hindlilərin "Kəlilə və Dimnə" əsərində bir fikir belədir: Gözəl sözlər işlərlə möhkəmləndirildikdə yaxşı nəticə verir.

Siz də zəkalı olduğunuzu bu gün dərsdəki cavablarınızla sübuta yetirin.

Sonra sual-cavab başlayır. Informatikanın 1960-cı illədə meydana çıxdığını; informatikanın informasiyanın xassələrini öyrəndiyini, informasiya sözünün xəbər, məlumat anlamlarını ifadə etdiyini; qəzet, jurnal, televiziya və radionun, müəllim, telefon və kompüterin əsas informasiya mənbələri olduğunu suallara cavablar kimi söyləyən ikincilər gözəl, qulaq, dil, burun və dəri vasitəsilə informasiya qəbul edildiyini dedilər. İnformatika tədrisi zamanı görünən və eşidilən informasiyalardan istifadə olunur; monitor görüdən informasiyanın mətn, qrafik, video, səsucaldıcılar isə eşidilən informasiyanın danışıq, musiqi, səs effektləri ilə işləyir, — cavablarının düzgünlüyündən razı qalan M.Qasımova motivasiyanı aydınlaşdırmaq üçün vatman kağızına çəkilmiş krossvordu lövhədən asır.

Asılan krossvordun bir obyekt olaraq informasiya tutumu olduğunu söyləyən ikincilər krossvordda şaquli istiqamətdə qrup, üfüqi istiqamətdə isə Azərbaycan xalqının ən böyük problemi - **Qarabağ**; on bir ayın sultanı - **Ramazan**; bayrağımızda həkk olunan əşyalardan biri - **sokkizqoşeli ulduz**; kişi baş geyimi - **papaq** sözlərinin yazıldığını bildirdilər. Müəllim sualına cavab olaraq bildirilir ki, sabah axır çərşənbə günüdür, qapılara papaq atılacaq. Və bir-iki cümlə ilə Mayisə müəllim uşaqlara çatdırdı ki, mart ayı həm də xalqımızın tarixinə dəhşətli tarixi hadisə ilə həkk olunub: 31 Mart azərbaycanlıların erməni faşistləri tərəfindən soyqırımı günüdür.

Dərsin sonrakı dəqiqələrində müsahibə yolu ilə şagirdlər bir daha təkrar etdilər: ermənilər oğru və namərd xalqdır; onlar bizim çoxlu mahnılarımızı, milli xörək və məişət əşyalarımızı öz adlarına çıxdılar.

Şaquli istiqamətdə yazılan söz "qrup"dur. Keçən dərsdə "Qrup. Qruplaşdırma" mövzusunun keçildiyi, bəzi əşyaların xassələrinə görə qruplaşdırıldığı; yeni dərsin mövzusunun "Əşyaların qruplaşdırılması" olduğu bildirildi. Zərfdəki rəngli dairələr vasitəsilə şagirdlər qruplara bölünür; rəngli dairələrin qrupların elementləri olduğu cavabı alınır; kompüter otağında davranış qaydaları yada salınır; kompüter otağının böyük alim Lütfi Zadənin adını daşıdığı bildirilir, onun şəkli gösterilir.

Dərs "Oğuz", "Azadlıq", "Yaşıl dünya", "Sülh", "Zirvə" qruplarına ad verilməsi, liderlər seçilməsi ilə davam etdirilir. İşçi vərəqləri paylanıb izahat verilir. Birinci tapşırığın mürəkkəb obyekt olan kompütərdə (əsas hissələri monitor, klaviatura, sistem bloku, siçandan ibarətdir, — cavabı alınır) müvafiq ardıcıllıqla WORD proqramı yerinə yetiriləcəyi bildirilir.

Hər bir komanda qruplaşdırdığı əşyalardan istifadə edib, fənlərlə əlaqəli pantomima hazırladı: 10 Mart Milli Teatr, 27 Mart Beynəlxalq Teatr günüdür.

Məntiqi məsələ üzrə qrupların təqdimatı başlandı: təyyarə, avtomobil və gəmi nəqliyyat kimi qruplaşdırıldı.

İkinci qrupun təqdimatında elementlər (xiyar, badımcan, bibər, kələm, soğan, kartof, kök, pomidor) olduğu üçün kompüterdə qırmızı rəngə "Tərəvəz" yazılır.

M.Qasımova həyat bilgisi fənnindən qazanılmış bilikləri yada salır: bunlar vitaminlərə zəngindir; bunlardan istifadə zamanı gigiyenik qaydalara əməl edilməlidir...

Dərs prosesində hər bir qrupun "pantomiması açıqlanıb dinlənildi; həyat bilgisi fənnindən qazanılmış biliklər yeni mövzu ilə əlaqələndirildi; qrupların elementləri olan **Kamal, Leyla** sözlərinin lüğəti mənaları açıqlandı; "Yallı" oyun havası xatırladıldı...

Tədris prosesində monitorda müxtəlif elementlər göründü, rəsmlər rənglendi, məntiqi məsələ qrupların birgə səyi ilə həll olundu.

Fiziki fasilə elan edilir; 15 dəqiqə kompütərdə işləyən ikincilər idmanla məşğul olurlar. Uşaqlar kompütərdə sərbəst işləyərkən müəllim onlara nəzarət edir. Vaxt başa çatdıqdan sonra təqdimat başlanır.

M.Qasımova məlumat verir: — İnformasiyanın xassələrini bir insan, bir də kompüter araşdırır. Əziz uşaqlar, siz həm kompütərdə şəkil çəkdiniz, yazı yazdınız, musiqi səsləndirdiniz. Həm insan, həm də kompüter eyni işi görə bildiyi üçün "Vaxt diaqramı" vasitəsilə onların fərqli və oxşar cəhətləri müqayisə edilir.

Möhkəmləndirmə mərhələsində "Xalq qəhrəmanları" adlanan qrupun elementləri sadalandı, işğal olunmuş bölgələrimiz yada salındı. Dərs prosesində riyaziyyat, oxu, Azərbaycan dili, əmək hazırlığı, rəsm, həyat bilgisi, fiziki tərbiyə, musiqi və xarici dillər fənləri ilə əlaqələr yaradıldı.

Müəllim əvəzolunmaz rolu olan kompüterin məktəbliyə özünü dərk etmək imkanı yaratdığını, onun bacanqlarını üzə çıxardığını əyanilləşdirməklə yanaşı, ölkəmizin uğurlu sabahına inam hissi aşılamaqla məşğələni yekunlaşdırdı.

***

Hər dəqiqəsi özünün qeyri-səlisliyi, informasiya zənginliyi, şagird təfəkkürü və təxəyyülünün inkişafına təsirinin çoxmotivliliyi və fasiləsizliyi ilə seçilən bu cür dərslər (ibtidai siniflərdə keçilən fənlər üzrə) ümumi orta təhsilin əsasında duran ibtidai təlimin səmərəliliyini təmin edir. Bu, məqsədyönlü və planlı müəllim axtarışları pedaqoji fəaliyyətin nəticələri kimi şagird biliyi və bacanqlarında özünü əks edir.

Şamxəlil MƏMMƏDOV

700 bal toplayan məzunlar

Dadaşov Elvin Vaqif oğlu



1990-cı ildə Quba rayonunun Susay kəndində dünyaya göz açan Elvin VI sinfədək doğma kəndlərində oxuyub, IX sinfi isə Quba şəhər texniki təmayüllü gimnaziyası ela başa vurub. Sonra ailəsi Sumqayıta köçüb. Sumqayıt şəhər təbiət elmləri təmayüllü gimnaziyası ela qiymətlərlə bitirib. Ali məktəbə qəbul olmaq üçün sənədlərini II qrupa verib. İmtahandan 700 bal toplayan Elvin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəçilik ixtisasına qəbul olunaraq arzusuna çatıb.

Hələ kiçik yaşlarından həyatın bir sıra çətinlikləri ilə üzləşən bu yeniyetmə sevincini bizimlə belə bölüşdü:

— Doğma kəndimizdə VI sinfi qurtardıqdan sonra daha yaxşı təhsil almaq üçün Quba Özəl Türk Liseyinə imtahan verdim. İ yeri tutsam da, lisey ödənişli olduğu üçün maddi vəziyyətimizin ağırlığı üzündən orada təhsil ala bilmədim. Quba texniki təmayüllü liseydə oxuduğum zaman bibimgildə qalmalı oldum. Yaxşı oxumağımda bibimin həyat yoldaşı, Qarabağ müharibəsində göstərdiyi şücaətə görə "Vətən uğrunda" medalı ilə təltif edilmiş, uzun müddət müəllim işləmiş (hazırda səhhətinə görə işləmir) Nazif Tağıyevin əməyini heç vaxt unutmaram. Lakin bibimgilin də maddi vəziyyəti onlarda qalıb oxumağıma imkan vermədi. Ən böyük arzum oxumaq, təhsilimi davam etdirmək idi. Bunu duyan qohumlarımız ailəmizə Sumqayıt şəhərində, fəhlə yataqxanasında bir otaq düzəltdilər. Ora köçdük. X və XI sinifləri Sumqayıt şəhər təbiət elmləri təmayüllü gimnaziyada başa vurdum. Bu təhsil ocağında yaradılan sağlam rəqabət, məktəbin direktoru Nizami Əhmədovun qayğısı daha səmərəli təhsil almağıma kömək etmişdir. Arzum təhsilimi İngiltərənin Oksford Universitetində davam etdirmək, harada oluramsa olum, müstəqil Azərbaycan Respublikasını layiqincə təmsil etmək, ixtisaslı kadr kimi yetişərək xalqımızın maddi və mənəvi rifahının yaxşılaşmasına yardımçı olmaqdır.

Əhmədov Nurlan Cəsarət oğlu

1990-cı il mayın 24-də Şirvan şəhərində anadan olub. 2008-ci ildə Şirvan şəhər 18 nömrəli orta məktəbi əla qiymətlərlə başa vuran Nurlan ali məktəbə qəbul olmaq üçün sənədlərini II qrupa verib. İmtahan suallarına tam cavab yazaraq 700 bal toplayıb və Bakı Dövlət Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunub.

Redaksiyamızın qonağı olan Nurlan sevincini aşağıdakı şəkildə bildirdi:

— Hələ uşaqlıqdan oxumağa böyük həvəsim olub. Atam sürücüdür, anam Afət Əhmədova Sabirabad rayonunun Dadaşbəyli kənd orta məktəbinin riyaziyyat müəllimidir. Yaxşı oxumağımda onun əməyi danılmazdır. Bu uğuruma görə valideynlərimə, müəllimlərim İsmayıl Yusubova, İdris Əlirzayevə, Sevda Səmədovaya, Rəhilə Məmmədovaya və başqalarına minnətdaram.

700 bal toplayacağıma və seçdiyim ixtisasa qəbul olacağıma tam inanırdım. Hələ orta məktəbdə oxuyarkən keçirilən sınaq test imtahanlarında hər dəfə yüksək bal toplayırdım. Qəbul zamanı topladığım yüksək bala görə valideynlərimə, müəllimlərimə, yaşadığım Şirvan şəhərinin ictimaiyyətinə başucalığı gətirdiyim üçün arxayınlaşmıram. Təhsildə, elmdə daha yeni uğurlar qazanmağı qarşıma məqsəd qoymuşam.

Ölkə Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında bu gün Azərbaycanda hər bir kəsin təhsil alması üçün münbit şərait yaradılmışdır. Şəffaf keçirilən qəbul imtahanları biliyin düzgün qiymətləndirilməsinə xidmət edir. Bu hal isə məzunları daha yaxşı oxumağa sövq edir. Ən böyük arzum bu təhsil ocağını başa vurduqdan sonra biliyimi xarici ölkə universitetlərinin birində daha da artırmaq. Vətənə layiq övlad kimi yetişərək beynəlxalq iqtisadi əlaqələrin inkişaf etdirilməsində müstəqil Azərbaycan Respublikasına qulluq etməkdir.

Kərəmov Anar Əbülfəz oğlu



1990-cı il iyunun 13-də Quba rayonunun Çiçi kəndində anadan olub. 7 yaşında olarkən valideynləri ilə birlikdə Xaçmaz rayonuna köçüb və həmin il Xaçmaz şəhər 6 nömrəli orta məktəbin I sinfinə gedib. VI sinfədək həmin məktəbdə oxuduqdan sonra imtahan verərək yüksək göstərici ilə Quba Özəl Türk Liseyinin VII sinfinə qəbul olub. 2008-ci ildə həmin təhsil ocağını əla qiymətlərlə başa vuran Anar ali məktəbə daxil olmaq üçün sənədlərini IV qrupa verib. İmtahan suallarının hamısına düzgün cavab yazaraq 700 bal toplayıb və Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olunub.

Söhbət əsnasında Anar dedi:

— Oxumağa həvəsim böyük olub. I sinfə gedəcəyim günü səbirsizliklə gözləmişəm. Yaxşı oxumağımda liseyin rolu yüksək olmuşdur. Burada dərslər xüsusi proqram əsasında keçilirdi. Müəllimlər axşamlar da məktəbdə olur, şagirdləri istiqamətləndirir, bildiklərini öyrədirlər. Gün ərzində demək olar ki, istirahət üçün bizə 4-5 saat vaxt verilirdi. Liseydə oxuyarkən elmə olan həvəsim daha da artdı. Məni həkim görmək valideynlərimin arzusu olsa da, özümün də bu peşəyə marağım çoxdur. Ona görə də Tibb Universitetinə qəbul olmaq üçün cəldi hazırlaşdım və arzuma çatdım.

Yüksək bal topladığıma görə məzunu olduğum Quba Özəl Türk Liseyində məni 3000 manat məbləğində pul mükafatı ilə mükafatlandıracaqlarını vəd ediblər. Yeri gəlmişkən qeyd edim ki, bu təhsil ocağında oxuduğum müddətdə yaxşı göstəricilərimə görə dəfələrlə pulla mükafatlandırılmışam və bu da məni daha yaxşı oxumağa sövq etmişdir.

Qazandığım yüksək nailiyyətə görə valideynlərimə və təhsilimdə əməyi olan bütün müəllimlərə təşəkkürümü bildirirəm.

Ən böyük arzum gələcəkdə təhsilimi xarici ölkələrin tanınmış elm ocağında davam etdirmək, bacarıqlı və bilikli həkim kimi Vətənə qayıdaraq xalqımın sağlamlığı keşiyində durmaqdır.

Əliyev Emil Məmmədhüseyn oğlu

1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Babək qəsəbəsində anadan olub. Babək qəsəbə orta məktəbində VI sinfədək oxuduqdan sonra təhsilini Naxçıvan Özəl Türk Liseyində davam etdirib. 2008-ci ilde liseyi əla qiymətlərlə başa vuran Emil ali məktəbə qəbul olmaq üçün sənədlərini III qrupa verib və yüksək bilik nümayiş etdirərək 700 bal toplayıb. Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olunaraq arzusuna qovuşub.

Naxçıvanla telefon əlaqəsi yaradıb Emili təbrik edərək sevincinə şərik olduq. O dedi:

— Qəbul imtahanı zamanı yüksək nəticə göstərərək seçdiyim ixtisasa qəbul olduğum üçün, ilk növbədə, valideynlərimə minnətdaram. Oxumağımda yüksək əməyi olan ibtidai sinif müəllimim Gülsara Rəhimovaya, tarix müəllimim Vəli Hüseynova, liseyin direktoru Hasan Avcıya dərin təşəkkürümü bildirirəm.

Çox sevinirəm ki, qazandığım bu uğura görə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov məni təbrik edərək muxtar respublikanın ensiklopediyası və pul mükafatı ilə mükafatlandırmışdır. Həmçinin Naxçıvan MR-in təhsil naziri Piri Nağıyev, Babək Rayon Təhsil Şöbəsinin müdiri Kamil Kazımov məni təbrik etmiş və mənə uğurlar diləmişlər. Bitirdiyim Naxçıvan Özəl Türk Liseyi də məni pulla mükafatlandıracağına söz verib. Ümumiyyətlə, Naxçıvan Ali Məclisində 600-dən yuxarı bal toplamış 219 məzunun hər birinə Naxçıvanın ensiklopediyası və pul mükafatları verilmişdir.

Yaradılan şəraitə, biliyə verilən yüksək qiymətə görə ölkə başçısına minnətdar olmalı, bu qayğıya əməli işlə cavab verməliyik.

Atam müəllim, anam isə həkimdir. Lakin beynəlxalq münasibətlər ixtisasını özüm seçmişəm. Tükənmək bilməyən qondarma Qarabağ problemi məni daim narahat edir. Arzum bacarıqlı, vətənpərvər diplomat kimi yetişmək, müstəqil Azərbaycana layiqincə xidmət etməkdir.

Nizami MİRZƏ

Dünya xalqlarının nağıları

Böyüməkdə olan nəslin dünyagörüşünün genişləndirilməsində, bədii-estetik, ekoloji tərbiyəsində söz sənəti nümunələrinin, xüsusən dünya xalqlarının başlıca mənəvi dayərlərindən olan folklor əsərlərinin rolu vardır.

Azərbaycanın dünya birliklərində təmsil edildiyi, dünya təhsilinə inteqrasiyanın sistem təşkil etdiyi bir zamanda böyüməkdə olan nəslin başqa xalqların etnopsixologiyasını, dünyagörüşünü bədii-estetik kontekstdə əks etdirən xalq ədəbiyyatı nümunələri ilə tanış edilməsi təqdirəlayiqdir.

"Göyərçin" jurnalı redaksiyasının "Göyərçinin kitabxanası" seriyasından nəşr etdiyi toplular bu baxımdan diqqəti cəlb edir. 2008-ci ildə, yeni dərs ili ərəfəsində buraxılmış kitablardan biri "İlahi qazlar" adlanır. Buraya ingilis yazıçısı Donald Bissetin, İspan yazıçısı Antonio Robleşin, fransız nasiri, siyasi xadim Labule de Lefevrin, fin yazıçısı Topeliusun və b.ədəbi nağılları daxil edilmişdir.

"Sehrli üzük" adlanan ikinci topluda isə fars ("Tülkü və Xoruz"), əfqan ("Ədələtli bölgü"), serb ("İşləməyən dişləməz"), İndoneziya ("Pişik və meymun balaları"), alban ("Ağıllı qız"), sloven ("Çoban"), Koreya ("Qayıqçı"), italyan ("Sehrli üzük") xalqlarının nağıllarından nümunələr verilmişdir.

Rəssamlardan Orxan, Vəfa, Oqtay Quliyev və b. orijinal rəsmləri ilə diqqəti cəlb edən hər iki topludakı ədəbi nümunələri şair Rafiq Yusifoğlu tərcümə etmişdir.

Ş.ELNUR

Azərbaycan aşıqlarının V qurultayı keçirilib

AzərTAc xəbər verir ki, avqustun 29-da Azərbaycan aşıqlarının V qurultayı keçirilmişdir. Qurultayda 22 bölgədən 200-dən çox nümayəndə, ədəbiyyatşünas və folkloršünas alimlər, Milli Məclisin deputatları iştirak etmişlər. Məclisə Gürcüstan və Təbriz aşıqlarının nümayəndələri də qatılmışlar. Qurultayın iştirakçıları Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzan önünə gül dəstələri düzmüşlər. Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın da məzan üstünə gülər qoyulmuşdur.

Qurultay Azərbaycan Dövlət Musiqili Komediya Teatrında öz işini davam etdirmişdir.

Aşıq sənətinin xalqımızın zəngin, milli maddi və mədəni sərvətlərindən biri olduğunu diqqətə çatdıran mədəniyyət və turizm naziri Əbülfəs Qarayev demişdir ki, biz bu sərvətimizi də dünyaya tanıtmalıyıq. Bu istiqamətdə intensiv iş apanılmalıdır. Nazir qeyd etmişdir ki, aşıq sənətinə dövlət səviyyəsində diqqət və qayğı göstərilir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva aşıq sənətinin YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsi üçün böyük səylər göstərir.

Akademik Bəkir Nəbiyev, AMEA-nın müxbir üzvü Nizami Cəfərov, mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva, filologiya elmləri doktorları Qəzənfər Paşayev, Rafael Hüseynov, Məhərrəm Qasımlı, Sədnik Paşayev, Milli Məclisin deputatı Qənirə Paşayeva, Yazıçılar Birliyinin birinci katibi, xalq şairi Fikrət Qoca, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, aşıqlar Ədalət Nəsibov, İsfəndiyar Rüstəmov və başqaları çıxış edərək, aşıq sənətinin inkişaf etdirilməsi və təbliğ olunması istiqamətində işlər, rin intensivləşdirilməsini, Bakıdı Ozan-Aşıq evinin tikilməsini, ustad aşıqların ifalarının SD disklərinə köçürülməsini, aşıq sənəti ensiklopediyasının hazırlanmasını, beynəlxalq festivalların keçirilməsini təklif etmişlər.

Qurultayda təşkilati məsələyə baxılmış, xalq şairi Zəlimxan Yaqub Azərbaycan Aşıqlar Birliyinin sədri seçilmişdir.

Zəlimxan Yaqub ona göstərilən etimada görə qurultay iştirakçılarına minnətdarlığını bildirmiş, qarşıda duran vəzifələrdən danışmışdır.

Qurultay aşıqların geniş konsert proqramı ilə başa çatmışdır.